*Azərbaycan Respublikası*
*Dövlət Sosial Müdafiə Fondunun*
*2009-cu il 16 aprel tarixli*
*253 nömrəli Əmri ilə təsdiq edilmişdir*

# "Məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumat"ın tərtibi QAYDALARI

Sığortaedənlər uçotda olduqları Dövlət Sosial Müdafiə Fondu (DSMF) orqanına hər il sığortaolunanlara dair "Məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumat"ı (Forma B3) təqdim edirlər.

Sığortaedənlər məcburi dövlət sosial sığorta məqsədləri üçün fəaliyyət növünün hər kodu üzrə (məcburi dövlət sosial sığorta haqqı üzrə hər dərəcəyə görə) ayrı-ayrılıqda məlumat təqdim etməlidirlər.

## 1. Sığortaedən haqqında məlumat.

Bu bölmə özündə sığortaedənin adını, məlumat növünün kodunu, DSMF-dəki uçot nömrəsini, vergi orqanlarındakı VÖEN-i, məcburi dövlət sosial sığorta məqsədləri üçün fəaliyyət növünün kodunu, sosial sığorta nömrəsini, torpağa mülkiyyət hüququnu təsdiq edən sənədin seriyası və nömrəsini əks etdirir.

1.1 *DSMF-dəki uçot nömrəsi* – sığortaedənin DSMF orqanındakı yeni uçot nömrəsidir. Bu nömrə unikal nömrə sayılır və 11 rəqəmdən ibarətdir.

*1.2 VÖEN* – sığortaedənin vergi ödəyicisi kimi vergi orqanındakı eyniləşdirmə nömrəsidir. Bu nömrə unikal nömrə sayılır və 10 rəqəmdən ibarətdir. Hüquqi şəxslərin filialları və struktur bölmələri üzrə bu nömrə 15 rəqəmdən ibarətdir.

*1.3 Məcburi dövlət sosial sığorta məqsədləri üçün fəaliyyət növünün kodu* (Əlavə 1) – məcburi dövlət sosial sığorta haqqı dərəcələrindən asılı olaraq fərqləndirilən fəaliyyət növünün kodudur. Bu kod 4 rəqəmdən ibarətdir. Məlumatın doldurulması və məlumatdakı nəzarət funksiyaları bu koddan asılı olaraq müəyyənləşdirilmişdir.

*1.4 Sığortaedənin (fiziki şəxs) SSN* - DSMF tərəfindən sığortaolunana verilən daimi (dəyişməz) nömrədir. Bu sahənin doldurulması sığortaedən kimi uçota alınan fiziki şəxslər üçün məcburi xarakter daşıyır.

1.5 *Torpağa mülkiyyət hüququnu təsdiq edən sənəd* - müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəsmiləşdirilən və torpağa mülkiyyət hüququnu təsdiq edən sənədin seriyasını və nömrəsini əks etdirir.

*Məlumat növünün kodu* **–** məlumatın təqdim edilməsi məqsədindən asılı olaraq aşağıdakılardan ibarətdir:

- ✓ **00-** illik B3 məlumatı təqdim olunan forma;
- ✓ **01-** sığortaolunanın pensiyaya çıxması ilə əlaqədar təqdim olunan forma;
- ✓ **02-** sığortaolunanın ölümü ilə əlaqədar təqdim olunan forma;
- ✓ **03-** sığortaedənin fəaliyyətinin müvəqqəti dayandırılması ilə əlaqədar təqdim olunan forma
- ✓ **04-** təşkilatın ləğv olunması ilə əlaqədar təqdim olunan forma;
- ✓ **05-** illik B3 məlumatında göstərilməyən və sığortaedənlərin köhnə borclarına aid olan məlumatları əks etdirən forma;
- ✓ **06-** düzəliş olunan B3 forması.

Məlumat növünün kodu **00** ilə təqdim olunan məlumat formaları hər il üçün növbəti ilin mart ayının 1-nə kimi təqdim edilməlidir. Digər məlumat kodları üzrə məlumat formaları isə yalnız müvafiq hal baş verdiyi zaman təqdim edilməlidir.

2. **Məlumat** ili

Bu bölmə aşağıdakı göstəriciləri əhatə edir:
*Məlumat ili* – məlumatın əhatə etdiyi ili əks etdirir.
Sığortaolunanın soyadı, adı, atasının adı və SSN-i onun dövlət sosial sığorta şəhadətnaməsinin üzərindəki məlumatlarla, dövlət sosial sığorta şəhadətnaməsinin üzərində əks olunmuş məlumatlar isə öz növbəsində vətəndaşın şəxsiyyətini təsdiq edən sənəddə əks olunmuş məlumatlarla eyni olmalıdır.
Dövlət sosial sığorta şəhadətnaməsinin üzərində əks olunmuş məlumatlar vətəndaşın şəxsiyyətini təsdiq edən sənəddə əks olunmuş məlumatlarla uyğun gəlmədiyi halda həmin sığortaolunan üçün düzgün olmayan məlumatın düzəliş edilməsinə dair Q5 forması (Dövlət sosial sığorta şəhadətnaməsinin dəyişdirilməsi və ya dublikatının verilməsinə dair ərizə ) doldurularaq Dövlət Sosial Müdafiə Fondu orqanına təqdim edilməlidir.
*Aylar* – məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlərin əhatə olunduğu və məcburi dövlət sosial sığorta haqqının ödənişinin həyata keçirildiyi ayları əks etdirir.
*Məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər* – məcburi dövlət sosial sığorta haqqına cəlb olunan əmək ödənişi və gəlirlərin məbləğidir.

*Ödənilmiş məcburi dövlət sosial sığorta haqqı* – məcburi dövlət sosial sığortası üzrə məlumat ilində sığortaolunana dair ödənilmiş məcburi dövlət sosial sığorta haqqı məbləğidir.
*Cəmi* – sığortaolunana dair aylar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının cəmi məbləğidir.
B3 məlumat forması doldurulan zaman aşağıdakı vacib məqamlara diqqət yetirmək tələb olunur:

- ✓ Yalnız 2006-cı il 1 yanvar tarixindən sonrakı dövr üçün hesablanmış və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı B3 məlumat formasında əks OLUNMALIDIR;

- ✓ 2006-cı il 1 yanvar tarixindən əvvəl yaranmış borc öhdəliyi 2006-cı il 1 yanvar tarixindən sonra ödənildikdə bu məbləğ B3 məlumat formasında əks OLUNMAMALIDIR;

- ✓ 2006-cı il 1 yanvar tarixinə DSMF-nin sığortaedənə olan borcu bu tarixdən sonrakı dövr üçün hesablanmış məcburi dövlət sosial sığorta haqqının ödənişi üçün istifadə olunduğu təqdirdə B3 məlumat formasında əks OLUNMALIDIR;

- ✓ Sığortaedənin məlumat ili üçün ödədiyi məcburi dövlət sosial sığorta haqqının məbləği hesablanmış məcburi dövlət sosial sığorta haqqının məbləğindən çox olduğu zaman sığortaolunanların fərdi şəxsi hesablarına yalnız hesablanmış məcburi dövlət sosial sığorta haqqı qədər məbləğ əks olunur, müəssisə üzrə artıq ödənilmiş məbləğ növbəti ilə keçirilir;

- ✓ Sığortaedənin məlumat ili üçün ödədiyi məcburi dövlət sosial sığorta haqqının məbləği hesablanmış məcburi dövlət sosial sığorta haqqının məbləğindən az olduğu zaman ödənilmiş məbləği hesablanmış məbləğə bölməklə proporsional nisbətin tapılması və həmin nisbəti hər bir sığortaolunan üçün hesablanmış məcburi dövlət sosial sığorta haqqının məbləğinə vurmaqla sığortaedən üzrə bütün sığortaolunanların ödənilmiş məcburi dövlət sosial sığorta haqları ilə əhatə olunması məqsədəuyğundur;

- ✓ Hesablanmış və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı dedikdə yalnız məcburi dövlət sosial sığorta haqqının əsas məbləği nəzərdə tutulur. Maliyyə sanksiyaları ( o cümlədən penya ) , inzibati cərimələr və digər bu məbləğə daxil OLUNMAMALIDIR.

**Misal 1**
2005-ci ildə sığortaedən tərəfindən 5000 man. məcburi dövlət sosial sığorta haqqı hesablanmış və 2950 man. ödənilmişdir. 2005-ci ildə məcburi dövlət

sosial sığorta haqqı üzrə 2050 man. (5000 man – 2950 man) DSMF-yə borc yaranmışdır.
2006-cı ildə isə sığortaedən tərəfindən 5000 man. məcburi dövlət sosial sığorta haqqı hesablanmış və 6850 man. (4800 man. 2006-cı il üzrə + 2050 man. 2005-ci il üzrə yaranmış borc) ödənilmişdir. 01.01.2007-ci il tarixinə 2006-cı il üzrə 200 man. (5000 man – 4800 man) borc yaranmışdır.
*2006-cı il üçün təqdim edilən B3 məlumat formasında ödənilmiş məcburi dövlət sosial sığorta haqqı kimi 4800 man. əks olunacaqdır. 2005-ci il üzrə yaranmış borc öhdəliyi 2050 man. 2006-ci ildə ödənilməsinə baxmayaraq 2005-ci ilin borcu olduğu üçün 2006-cı ilin B3 məlumat formasında əks olunmayacaq. 2006-cı il üzrə yaranmış borc öhdəliyi 200 man. 2007-ci ildə ödənildiyi üçün 2007-ci ilin B3 məlumat formasında əks olunacaq.*
**Misal 2**
2005-ci ildə sığortaedən tərəfindən 5000 man. məcburi dövlət sosial sığorta haqqı hesablanmış və 6000 man. ödənilmişdir. 01.01.2006-cı il tarixinə 2005-ci ildə məcburi dövlət sosial sığorta haqqı üzrə 1000 man. (6000 man – 5000 man) artıq ödəmə olmuşdur.
2006-cı ildə isə sığortaedən tərəfindən 5000 man. məcburi dövlət sosial sığorta haqqı hesablanmış və 4000 man. ödənilmişdir.
*Bu zaman 2005-ci il üzrə yaranmış artıq ödəmə 1000 man. 2006-cı il üçün yaranmış borcun ödənilməsi üçün istifadə olunacaq. 2006-cı il üçün təqdim olunmuş məlumat formasında 5000 man. (4000 man. + 1000 man.) əks olunacaq.*
**Misal 3**
2007-ci ilin əvvəlinə 3000 man. artıq ödəmə yaranmışdır.
2007-ci ildə 5000 man məcburi dövlət sosial sığorta haqqı hesablanmış və ondan 4000 man. ödənilmişdir.
2007-ci ilin sonuna isə artıq ödəmə 2000 manat təşkil etmişdir.
***2007-ci il üçün** təqdim edilən B3 məlumat formasında ödənilmiş məcburi dövlət sosial sığorta haqqı kimi **5000 man.** əks olunacaq. (5000 man = 3000 man + 4000 man – 2000 man).*
*Belə hallarda ilin əvvəlinə olan artıq ödəmənin üzərinə həmin il üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqqının məbləği əlavə olunur və həmin ilin sonuna olan artıq ödəmə çıxılır.*
**Misal 4**
2005-ci ildə sığortaedən tərəfindən 5000 man. məcburi dövlət sosial sığorta haqqı hesablanmış və 3100 man. ödənilmişdir. 2005-ci ildə məcburi dövlət sosial sığorta haqqı üzrə 1900 man. (5000 man – 3100 man) DSMF-yə borc yaranmışdır.
2006-cı ildə sığortaedən tərəfindən 5000 man. məcburi dövlət sosial sığorta haqqı hesablanmış və 10000 man. (8100 man. + 1900 man. 2005-ci il üzrə yaranmış borc) ödənilmişdir. 01.01.2007-ci il tarixinə 2006-cı il üzrə 3100 man. (10000 man – 6900 man) artıq ödəmə olmuşdur.
2007-ci ildə sığortaedən tərəfindən 6000 man. məcburi dövlət sosial sığorta haqqı hesablanmış və 3000 man. ödənilmişdir. Bu ödənişin üstünə

01.01.2007-ci il tarixinə 2006-cı il üzrə yaranmış 3100 man. artıq ödənilmiş vəsait əlavə edilir və beləliklə də 01.01.2008-ci il tarixinə 2007-ci il üzrə 100 man (3000 man + 3100 man - 6000 man) artıq ödəmə yaranır.
2008-ci ildə sığortaedən tərəfindən 7000 man. məcburi dövlət sosial sığorta haqqı hesablanmış və 6500 man. ödənilmişdir. 01.01.2009-cu il tarixinə 2008-ci il üzrə 400 man. (7000 man – 6500 man + 100 man) borc yaranmışdır.
*2006-cı, 2007-ci və 2008-ci ildə B3 formaları aşağıdakı qaydada doldurulmalıdır:*
***2006-cı il üçün** təqdim edilən B3 məlumat formasında ödənilmiş məcburi dövlət sosial sığorta haqqı kimi **5000 man.** əks olunacaq. 2005-ci il üzrə yaranmış borc öhdəliyi 1900 man. 2006-ci ildə ödənilməsinə baxmayaraq 2005-ci ilin borcu olduğu üçün 2006-cı ilin B3 məlumat formasında əks olunmayacaq. 3100 man. artıq ödəmə isə növbəti illər üzrə məcburi dövlət sosial sığorta haqqının ödənişinə sərf olunacaq.*
***2007-ci il üçün** təqdim edilən B3 məlumat formasında ödənilmiş məcburi dövlət sosial sığorta haqqı kimi **6000 man.** əks olunacaq. 2007-ci il üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqqı 3000 man. təşkil edir və yerdə qalan 3000 man. isə 2006-cı il üzrə yaranmış 3100 man. artıq ödəmə hesabına bağlanılır. 2007-ci ilin sonuna 100 man. artıq ödəmə yaranır.*
***2008-ci il üçün** təqdim edilən B3 məlumat formasında ödənilmiş məcburi dövlət sosial sığorta haqqı kimi **6600 man.** əks olunacaq. Bundan 6500 man. 2008-ci ildə ödənilən məcburi dövlət sosial sığorta haqqı, 100 man. 01.01.2008-ci ilə yaranmış artıq ödəmədir və 400 man. 2008-ci ilin sonuna yaranmış borc öhdəliyidir.*
Məlumatın sonunda sığortaedən tərəfindən məsul şəxsin tam adı, baş (böyük) mühasibin tam adı, məlumatı qəbul edən DSMF orqanının mütəxəssisinin tam adı, məlumatın doldurulduğu tarix göstərilməlidir və müvafiq qaydada imzalanıb möhürlənməlidir. Məlumat iki nüsxədə tərtib olunmalıdır.
Məlumatda DSMF-nin yerli orqanının üç rəqəmli kodu qeyd olunmalıdır. Bunlar aşağıdakılardır:

| DSMF orqanlarının adı | DSMF kodları |
|---|---|
| **İSİD** | **199** |
| **BHŞİD** | **188** |
| **HQXRŞİD** | **120** |
| Abşeron | 201 |
| Ağcabədi | 902 |
| Ağdam | 903 |
| Ağdaş | 901 |
| Ağstafa | 904 |
| Ağsu | 905 |

| | |
|---|---|
| Astara | 906 |
| Babək | 410 |
| Balakən | 907 |
| Beyləqan | 909 |
| Bərdə | 908 |
| Biləsuvar | 910 |
| Binəqədi | 101 |
| Cəbrayıl | 911 |
| Cəlilabad | 912 |
| Culfa | 414 |
| Daşkəsən | 913 |
| Dəvəçi | 204 |
| Əzizbəyov | 102 |
| Füzuli | 915 |
| Gədəbəy | 916 |
| Gəncə-Kəpəz | 302 |
| Gəncə-Nizami | 301 |
| Goranboy | 917 |
| Göyçay | 918 |
| Göygöl | 921 |
| Hacıqabul | 919 |
| Xaçmaz | 200 |
| Xankəndi | 920 |
| Xətai | 110 |
| Xızı | 202 |
| Xocalı | 957 |
| Xocavənd | 922 |
| İmişli | 923 |
| İsmayıllı | 924 |
| Kəlbəcər | 925 |
| Kəngərli | 415 |
| Kürdəmir | 926 |
| Qax | 927 |
| Qaradağ | 109 |
| Qazax | 928 |
| Qəbələ | 929 |
| Qobustan | 930 |
| Quba | 205 |
| Qubadlı | 931 |
| Qusar | 206 |
| Laçın | 932 |
| Lerik | 934 |
| Lənkəran | 933 |
| Masallı | 935 |
| Mingəçevir | 936 |
| Naftalan | 937 |

| | |
|---|---|
| Naxçıvan şəhər | 400 |
| Neftçala | 938 |
| Nərimanov | 103 |
| Nəsimi | 104 |
| Nizami | 105 |
| Oğuz | 939 |
| Ordubad | 412 |
| Saatlı | 940 |
| Sabirabad | 941 |
| Sabunçu | 106 |
| Salyan | 942 |
| Samux | 943 |
| Səbail | 107 |
| Sədərək | 416 |
| Siyəzən | 203 |
| Sumqayıt | 944 |
| Suraxanı | 108 |
| Şahbuz | 413 |
| Şamaxı | 945 |
| Şəki | 946 |
| Şəmkir | 947 |
| Şərur | 411 |
| Şirvan | 914 |
| Şuşa | 948 |
| Tər-tər | 949 |
| Tovuz | 950 |
| Ucar | 951 |
| Yardımlı | 952 |
| Yasamal | 111 |
| Yevlax | 953 |
| Zaqatala | 954 |
| Zəngilan | 955 |
| Zərdab | 956 |

Əlavə 1

| Məcburi dövlət sosial sığorta məqsədləri üçün fəaliyyət növünün kodu | Məcburi dövlət sosial sığorta məqsədləri üçün fəaliyyət növü |
|---|---|
| 0100 | İşəgötürənlər – muzdla işləyənləri əmək müqaviləsi ilə işə götürən hüquqi şəxslər (büdcədən maliyyələşən təşkilatlar istisna olmaqla) və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər |
| 0101 | Beynəlxalq, yerli humanitar və onların təsis etdikləri inkişaf təşkilatları (yalnız hesablanmış əmək haqqının 3 faizi miqdarında m.d.s.s.haqqı ödəyənlər) |
| 0102 | Büdcədən maliyyələşən təşkilatlar (büdcə vəsaitləri üzrə) |

| | |
|---|---|
| 0103 | Büdcədən maliyyələşən təşkilatlar (xüsusi vəsaitlər üzrə) |
| 0110 | Seçkili orqanlar |
| 0200 | Müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər |
| 0300 | Vəkillər kollegiyasının üzvləri, xüsusi notariuslar, sərbəst auditorlar, sərbəst mühasiblər |
| 0400 | Ev təsərrüfatında muzdlu işçilərin (ev qulluqçusu, dayə, şəxsi katibə, sürücü və s.) əməyindən istifadə edən şəxslər |
| 0500 | Mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər |
| 0600 | Xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyəti ilə və ya fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan və həmin ölkələrdə məcburi dövlət sosial sığorta haqqı ödəməyən Azərbaycan Respublikasının vətəndaşları |
| 0700 | Ticarət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- Bakı şəhərində |
| 0701 | Ticarət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- Sumqayıt və Gəncə şəhərlərində |
| 0702 | Ticarət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- respublika tabeli digər şəhərlərdə |
| 0703 | Ticarət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə |
| 0704 | Ticarət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- kənd yerlərində |
| 0710 | Nəqliyyat sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- Bakı şəhərində |
| 0711 | Nəqliyyat sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- Sumqayıt və Gəncə şəhərlərində |
| 0712 | Nəqliyyat sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- respublika tabeli digər şəhərlərdə |
| 0713 | Nəqliyyat sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə |
| 0714 | Nəqliyyat sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- kənd yerlərində |
| 0720 | Tikinti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- Bakı şəhərində |
| 0721 | Tikinti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- Sumqayıt və Gəncə şəhərlərində |
| 0722 | Tikinti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- respublika tabeli digər şəhərlərdə |
| 0723 | Tikinti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə |
| 0724 | Tikinti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- kənd yerlərində |
| 0730 | Digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- Bakı şəhərində |
| 0731 | Digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- Sumqayıt və Gəncə şəhərlərində |
| 0732 | Digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- respublika tabeli digər şəhərlərdə |
| 0733 | Digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər- rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə |
| 0734 | Digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki |

| | |
|---|---|
| | şəxslər- kənd yerlərində |
| 0800 | Ailə kəndli təsərrüfatları |